# Azərbaycan Respublikası Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının yaradılması haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin 42-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası yaradılsın.

2. Azərbaycan Respublikası Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası aşağıdakı tərkibdə təşkil edilsin:

**Komissiyanın sədri** Namazov Ramid Zakir oğlu.
**Komissiyanın üzvləri:** Ağazadə Əminə Həmid qızı,
Bayramov Kamran Fərhad oğlu,
Həsənov Nurlan Urfan oğlu,
Məmmədov Qaya Məmməd oğlu,
Mikayılova Sevil Əlirazı qızı,
Musabəyov Rasim Nəsrəddin oğlu,
Paşayeva Gülşən Məmmədəli qızı,
Şükürov Zaur Ramiz oğlu.

3. Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın vəzifə və səlahiyyətləri aşağıdakı kimi müəyyən edilsin:

3.1. Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi Sədrinin tapşırığı ilə xarici müdaxilələr və hibrid təhdidlər ilə bağlı hallara dair hesabatların hazırlanması;

3.2. xarici müdaxilələr və hibrid təhdidlər ilə bağlı önləyici addımlara dair təkliflərin hazırlanması;

3.3. Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi Sədrinin tapşırığı ilə xarici müdaxilələr və hibrid təhdidlər barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə bəyanatların verilməsi;

3.4. Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi Sədrinin tapşırığı ilə zəruri hallarda müvafiq istiqamətlər üzrə ictimai dinləmələrin keçirilməsi;

3.5. aidiyyəti icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları ilə əməkdaşlıq əlaqələrinin qurulması;

3.6. qanunvericiliyin xarici müdaxilələr və hibrid təhdidlər baxımından araşdırılması, təhlil edilməsi və bununla bağlı Azərbaycan Respublikasının Milli Məclisinə təkliflərin verilməsi;

3.7. Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası Milli Məclisi Sədrinin tapşırığı ilə zəruri hallarda komitələrin qanun layihələrinə dair müvafiq müzakirələrində iştirak edilməsi;

3.8. hibrid təhdidlər üzrə beynəlxalq əməkdaşlıqda iştirak edilməsi, Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq parlament təşkilatlarında nümayəndələri ilə əlaqələndirilmiş fəaliyyət göstərilməsi.

4. Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddəti ərzində fəaliyyət göstərir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 30 sentyabr 2024-cü il*

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 2 oktyabr (№ 215).- S.3.